Azərbaycan Dövlət İqtisad Universiteti

«Beynəlxalq İqtisadi Münasibətlər» kafedrası

# DÜNYA İQTİSADİYYATI



i.e.d., prof. Hacızadə Elşən Mahmud oğlu

BAKI - 2011

# İnkişaf etməkdə olan ölkələrin *iqtisadi gerilik problemi*

## Mövzunun planı

*1. İnkişaf etməkdə olan ölkələr qrupunun ümumi xarakteristikası.*

*2. İqtisadi gerilik probleminin mahiyyəti və nəzəri əsasları*

*3. Yoxsulluğun iqtisadiyyatı.*

*4. Problemin həlli yolları.*




КАРТА МИРА

# «İnkişaf etməkdə olan ölkə» *anlayışı*

***İnkişaf etməkdə olan ölkələr*** (*developing countries*) - zəif inkişaf etmiş iqtisadiyyata, yüksək olmayan iqtisadi potensiala, aşagı standartlı istehsal, xidmət və sosial duruma malik olan ölkələr.

## Xarakterik cəhətləri




- Iqtisadi inkişafın mütləq və nisbi aşağı göstəriciliyi;
- Iqtisadiyyatın çoxukladlı xarakterliyi;
- Kiçik əmtəəlikdən inhisarçılığa qədər istehsal;
- Texniki və texnoloji gerilik;
- Dünya təsərrüfatından asılılıq;
- İxrac potensialı xammal təyinatlı;
- İstehsal və sosial infrastrukturu, istehsal gücləri aşağı səviyyəli;
- Yoxsulluq, yüksək işsizlik, aşağı səviyyəli təhsil;
- Patriarxal mentalitet və korrupsiya.



# İnkişaf etməkdə olan ölkələr

***İnkişaf etməkdə olan ölkələrdə***

adətən emal sənayesinin ÜDM-də payı 10%-i aşmır.

***İnkişaf etməkdə olan ölkələrə***

köhnə düşüncəlilik xasdır və
bazar münasibətləri quruculuğu
əksərən «immitasiya» xarakterlidir



***İnkişaf etməkdə olan ölkələrin***

sənayesi və iqtisadiyyatın digər strukturları ümumilikdə qeyri-mütərəqqi quruluşludur və onlara modernizasiyaya hazırlıqsızlıq xüsusiyyəti xasdır.

# İnkişaf etməkdə olan ölkələr *tipologiyası*

***Zəif inkişaf etmiş*** - *nisbətən kasıb ölkələr* - iqtisadi inkişaf templəri son dərəcə aşağı templi (*tropik Afrikanın əksər, Cənubi Asiyanın bəzi, Latın Amerikasının bir sıra və Okeaniyanın praktiki olaraq bütün ölkələri*). Bu ölkələrdə dünya əhalisinin 2,5%-i yaşayır və onlar qlobal ÜDM-in 1%-ni verirlər.

***Özləri inkişaf edən ölkələr*** - iqtisadiyyatları nisbi uğurlu inkişaf etmiş ölkələr (*adambaşına düşən gəlirləri* - *orta* - *Liviya, Tunis, Uruqvay, Paraqvay və s.,* - *yüksək* - *Bruney, Qətər, Küveyt, BƏƏ, Sinqapur və s.*). Xammal və aqrar təsərrüfatçılıqdan diversifikasiya olunan sənaye kompleksli yönümlü ixtisaslaşma xasdır və 3 qrupa bölünürlər:



1. Resurs üzrə ixtisaslaşma - daha çox neftlə ixtisaslaşma
2. Bütün mütləq iqtisadi göstəricilər ölkənin ölçülərindən irəli gələrək yüksək olanlar (*Çin, Hindistan, Braziliya, Meksika, Argentina*)
3. Yeni sənaye ölkələri (*Sinqapur, Cənubi Koreya, Malayziya, Tayvan və s.*)

***Sosializm eksperimentini davam etdirən ölkələr*** (*Şimali Koreya, Kuba, Vyetnam, Laos*).



# İnkişaf etməkdə olan ölkələr *iqtisadi gerilik problemi*

## Tarixi amillər

**üzun müddət müstəmləkə və yarımmüstəmləkə sistemində yaşama (*əksər ölkələr 1960-cı illərdən başlayaraq müstəqillik əldə etmişlər*).**

## İqtisadi amillər

- **çoxukladlılıq,**
- **xammalyönümlü iqtisadiyyat;**
- **satış bazarının inkişaf etmiş ökələrdə olması ilə bağlı asılılıq**
- **istehsal amillərinin inkişaf səviyyəsinin aşağı olması.**

## Metal amillər

**icmaların əqrabalıq sistemində qurulması və vətəndaş cəmiyyəti institutlarının olmaması;**

## Sosial amilər

**zəif sosial infrastruktur, məhdud həyat keyfiyyəti göstəriciliyi.**

# İnkişaf etməkdə olan ölkələr

## *iqtisadi gerilik problemi*

**Problemin qlobal xarakrteri**



- ***demoqrafik;***
- ***ekoloji;***
- ***ərzaq;***
- ***artan xarici borc;***
- ***inkişaf etmiş ölkələrdən asılılıq;***
- ***yoxsulluq.***

**«Əyalətlərdə eyni zamanda asılılıq, yoxsulluq və konfliktliliyin təkrar istehsal meyli fenomenləri mövcuddur. Əgər sehrli çubuqla bir an içində birinci fenomen yox edilərsə, ikinci fenomen yenə də qalacaq».**

**Argentina iqtisadçısı Raul Prebiş** (*1901-1986*)

# İnkişaf etməkdə olan ölkələrin

## sosial-iqtisadi inkişaf strategiyası

***Məqsədi*** geriliyi aradan qaldırmaq, ənənəvi təsərrüfat strukturlarını əvəzləmək, beynəlxalq əmək bölgüsündə mövqeləri dəyişmək, dünya təsərrüfatına inteqrasiyani dəirinləşdirmək.



Əksər ölkələrdə bu ***məqsədə*** nail olmanın metodlari kimi sənayeləşmənin iki modeli çıxış edir:

1. Idxalıəvəzləyən;
2. İxrac oriyentasiyalı.

# İQTISADI GERILIYIN QLOBAL MƏNZƏRƏSI

İnkişaf etməkdə olan ölkələrdə 4,8 milyard əhalidən:

- 1 milyarddan çox insan sağlam və fəal həyat tərzi sürmək üçün kifayət qədər ərzaq əldə edə bilmir;
- 1 milyarda yaxın əhali savadsızdır;
- 1 milyarddan çoxu təmiz içməli sudan, təxminən 2,4 milyard nəfəri isə əsas kanalizasiya qurğularından istifadə edə bilmir;
- Hər il beş yaşınadək 11 milyon uşaq qarşısı alına bilən xəstəliklərdən tələf olur;
- 400 milyon uşaq məktəbə getmir.



# Yoxsulluq



**Yoxsulluq** - fərdin və ya sosial qrupun təyin olunmuş minimal istehlak tələbləri çərçivəsində həyatının, əmək qabiliyyətinin saxlanılması və nəslinin davam etdirilməsi üçün iqtisadi vəziyyətinin xarakteristikası.

**Yoxsulluq** - insanların minimal pul, təhsil, hakimiyyət və nüfuza malik sosial və iqtisadi vəziyyəti.

**Yoxsulluq** - nisbi anlayışdır və müvaiq cəmiyyət içərisində ümumi həyat səviyyəsi standartından asılıdır.

**Yoxsulluq zonası** - yoxsulların yüksək konsentrasiyalı ərazisi. Burada yoxsulluq əmsalı orta ölkə göstəricisindən də yüksəkdir.

**Yoxsulluğun feminizasiyası** - yoxsullar arasında qadınların, ələlxüsus da tək anaların artımı tendensiyası.

# Yoxsulluq



Dünya praktikasında ***Yoxsulluq***
üç əsas konsepsiya ilə müəyyən edilir:

- Mütləq;
- Nisbi;
- Subyektiv.

**Mütləq *Yoxsulluq*** – əsas istehlak tələbləri (*istehlak miniumumu*) və onların ödənilməsini təmin edən resurs ölçüləri ilə müəyyənləşir.

**Nisbi *Yoxsulluq*** – rifah göstəriciləri ilə konkret ölkədəki material təminatlılığı səviyyəsi nisbətində təyin olunur.

**Subyektiv *Yoxsulluq*** – sorğusu keçirilənlər tərəfindən təqdim olunan material vəziyyət və həyat səviyyəsi göstəricisinə əsaslanır

# Gəlirlər və Yoxsulluq



- *Yaşadığımız müasir dünyanı varlı hesab etmək olar. İndi qlobal bəşəri gəlir 31$ trilyonu aşmışdır.*
- *Dünyanın bir qütbündə orta statistik insan ildə 40000$ qazanır, digər qütbündə isə 2,8 milyard insan il ərzində 700$ -dan az, onun da 1,2 milyardı gün ərzində 1$-dan az gəlir əldə edir.*
- *Bunun nəticəsidir ki, inkişaf etməkdə olan ölkələrdə hər gün 33 mindən çox uşaq, hər dəqiqə doğum vaxtı bir qadın tələf olur.*
- *Yoxsulluq 100 milyon uşağı, əsasən qızların məktəbə getməsini məhdudlaşdırır.*

# İnsan potensialının inkişaf indeksi

*«İnsan potensialının inkişaf indeksi»* - İPİİ və ya sadəcə olaraq «İnsan inkişafı indeksi»

**İPİİ - ölkənin yoxsulluq, savadlılıq, təhsil, orta ömür və s. bu kimi sosial göstəricilərini xarakterizə edir.**

**İPİİ - 1990-cı ildə Pakistan iqtisadçısı Məhbub ül-Həq** (*1934-1998*) **tərəfindən işlənilmiş və 1993-cü ildən BMT-nin insan potensialının illik hesabatlarında istifadə olunur.**



**İPİİ - üç göstəricini nəzərdə tutur.**

1. ***Gözlənilən orta ömür.***
2. ***Əhalinin təhsil səviyyəsi.***
3. ***Həyat səviyyəsi - paritet istehlak qabiliyyətində milli valyutada ÜDM-in adambaşına düşən bölgüsü.***

# İnsan yoxsulluğu indeksi

**Yaşayış minimumu** - ***insanın həyat fəaliyyətinin saxlanılması üçün minimal zəruri olan rifah və həyat vasitələri çeşidi.***

**Yoxsulluq astanası** - ***minimal gəlirin rəsmi təsbit olunmuş ölçüsü.***

***Ayrıca fərdin, ailənin yaşayış minimumunu təmin edən müvafiq zaman ərzində pul gəlirləri səviyyəsinin təyin olunmuş normativi.***

**İnsan yoxsulluğu indeksi**

- ***yoxsulluq astanasını orta ölçülü dinamikasını xarakterizə edən statistik göstərici.***



# Lorens əyrisi

***Amerikan riyaziyyatçısı və iqtisadçısı***

**Otto Maks Lorenc** *(1876-1959)*



**Lorens əyrisi - əhalinin sayının və bu saya uyğun gələn gəlirlərin kumulyativ bölgüsünün qrafik illyustrasiyası.**

**Lorens əyrisi - ailələr üzrə faktiki gəlir bölgüsünü bərabər bölgüdən ayırmaq təhlilində istifadə edilir.**

**Lorens əyrisindən - iqtisadiyyatda məcmu gəlirlərin bölgüsünün təsvir edilməsi üçün istifadə olunur.**

# Lorens əyrisi

**Lorens əyrisi** qrafikində əhalinin əldə etdiyi gəlirlərin cəm halında faizi absis oxu üzərində, gəlirlərin cəm halında faizi isə ordinat oxu üzərində qurulur.

Gəlirlərin qeyri-bərabərlik dərəcəsi ideal bərabərliyi işarə edən xətlə (AB) **Lorens əyrisi** arasında sahə ilə müəyyən olunur.

**Lorens əyrisi** bərabər bölgü xəttindən nə qədər uzaqdırsa, gəlirlərin differensiasiyası bir o qədər çox olacaqdır.

Əgər gəlirlər bərabər bölüşdürülərsə bu zaman **Lorens əyrisi** düz xətt forması alır.

**Lorens əyrisi** müxtəlif ölkələrdə və ya müxtəlif regionlarda müxtəlif dövrlər ərzində gəlirlərin bölgüsünün müqayisə edilməsi üçün istifadə oluna bilər.




Şəkil 1. Lorens əyrisi

# Cinni əmsal (indeksi)

Cinni əmsalı **İtalyan iqtisadçısı, statistik və demoqrafı Korrado Cinni** (*1884-1965*) **tərəfindən işlənmiş gəlirlərin təmərküzləşmə əmsalıdır**



Cinni əmsalı gəlirin bölgüsündə qeyri-bərabərl dərəcəsini miqdarca qiymətləndirməyə imkan verən statistik göstəricidir.

Cinni əmsalı **Lorens əyrisi** (S) və ideal bərabərlik xətti ilə məhdudlaşan sahənin düz ideal bərabərlikdən aşağı olan (SABC) ümumi sahəyə nisbəti ilə müəyyən olunur.

# Cinni əmsalı (indeksi)

**Cinni əmsalı 0-1 intervalında gəlirlərin faktiki bölgüsünü mütləq bərabərlik və qeyri-bərabərlik bölgüsündən kənarlaşması göstəricisi kimi xarakterizə olunur.**

**Əgər bütün vətəndaşların gəlirləri eynidirsə «Cinni əmsalı» sıfıra bərabər olur.**

**Güman edilsə ki, bütün gəlirlər bir adamın əlində cəmləşmişdir, onda bu göstərici vahidə bərabər olacaqdır.**

**Əmsalın vahidə yaxınlığı müvafiq ölkədə gəlirlərin qeyri-bərabər bölgüsündən xəbər verir.**




**Cinni əmsalı** *yalnız əhalinin gəlirlərini deyil, ölkənin və regionda cəmiyyətin öyrənilən hər hansı bir əlamət üzrə təbəqələşməsini xarakterizə edərək, həm də müxtəlif qrup işçilərin (cins əlamətinə görə, məşğulluq xarakterinə görə və s.) əmək haqlarının qeyri-bərabər bölgüsü dərəcəsinin müəyyənləşdirilməsi üçün istifadə olunur.*

# Gender

**Gender** (ingiliscə - *gender*, latınca. *genus* - «nəsil») - sosial cins, insanın cəmiyyətdəki davranışı və onun qavranması.

**Gender** - digər insanlar: dostlar, sinif yoldaşları, kolleqalar, valideynlər, təsadüfi olanlarla cinsi davranış müqayisəsini təyin edir.



Sosial elmlərdə **Gender** - sosio-mədəni aspektdə insanın cinsi mənsubiyyətini ifadə edir.

# Xarici borc

**Xarici borc** - **təsbit olunmuş vaxt ərzində ölkənin xarici kreditorlara qaytarılacaq borcu - pul ifadəsində məcmu öhdəliyi.**

***Paris klubu*** **– sənayecə inkişaf etmiş ölkə kreditorlarının dövlətlərarası qeyri-rəsmi təşkilatı.**

**1956-ci ildə Argentinanın öz kreditorları ilə Parisdə görüşünə razılıq verməsi ilə Fransanın təşəbbüsü əsasında yaranmışdır.**

***Paris klubunun*** **hazırda əsas məqsədi inkişaf etməkdə olan ölkələrin borclarının restrukturizasiyasıdır.**

***London klubu*** **– 1976-cı ildə fəaliyyətə başlamış xarici borcluların bu klub qarşısında borc məsələlərini tənzimləyən bank kreditorların qeyri-formal təşkilatı.**

***London klubunun*** **mindən çox qeyri-dövlət, kommersiya bankı üzvüdür.**



# İqtisadi geriliyin aradan qaldırılması yolları

Kompleks yanaşmada ölkənin daxili resurs potensialına istinad edən səmərəli milli inkişaf strategiyalarının formalaşdırılması.



Təsərrüfat həyatının liberallaşması və aqrar münasibətlərin effektli yenidən qurulması.

Təhsil islahatlarının aparılması, səhiyyə sisteminin yaxşılaşdırılması, bərabərsizliyin yumşaldılıması, səmərəli demoqrafik siyasətin formalaşdırılması, məşğulluq probleminin həllinin stimullaşdırılması əsaslı sosial-iqtisadi siyasətin reallaşdırılması.

# Əsas anlayışlar

- Yoxsulluq;
- İnsan potensialının inkişaf indeksi;
- İnsan yoxsulluğu indeksi;
- Lorens əyrisi;
- Cinni əmsalı.



# T Tə Ə k K r R a A r R

- *İnkişaf etməkdə olan ölkələr tipologiyası;*
- *İnkişaf etməkdə olan ölkələrin iqtisadi gerilik problemi;*
- *iqtisadi gerilik probleminin aradan qaldırılması yolları;*
- *İnkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi inkişaf strategiyası;*
- *Gender problemi;*
- *Xarici borc.*



# Mövzunun ədəbiyyat siyahısı

1. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat, Bakı: Elm, 2006. 509 s.
2 Ломакин В.К. Мировая экономика. М.: ЮНИТИ, 2007. 410 с.
3. Хасбулатов, Р. И. Мировая экономика и международные экономические отношения. М.: Гардарики, 2006. 671 с.
4. Веснин В.Р., Цыпин И.С. Мировая экономика. М.: Проспект, 2009. 248 с.
5. Боброва В.В., Кальвина Ю.И. Мировая экономика: Учебное пособие. Оренбург: ГОУ ОГУ, 2004. 208 с.
6. Кудров В.М. Мировая экономика. М.: БЕК, 2004, 464 с.
7. Якобсон А. Я., Максимов И. М. Лекции по мировой экономике: Учебное пособие. Иркутск: ИрГУПС, 2006. 87 с.
8. Татарников Е.А., Максимчук Л.В. Шпаргалка по мировой экономике: Ответы на экзаменационные билеты. М.: Аллель-2000, 2005. 64 с.
9. Социально-экономическая география зарубежного мира, М.: Крон-Пресс, 1998, 592 с.



# *Son*

# TƏŞƏKKÜR EDİRİK!

# Azərbaycan Dövlət İqtisad Universiteti

Bakı ş. İstiqlaliyyət 6, ADİU, III mərtəbə,
Otaq No. 000
Tel: (+99412) 492 – 31 – 21
(+99412) 492 – 62 – 64
E-mail: elshan@mail.az
Veb sayt www.hajizadeh@narod.ru

